Azərbaycan Tibb Universtetinin

İctimai Səhiyyə fakultəsinin

04.06.2019-ci il tarixli

Fakultə Elmi Şurasının iclasının

Q Ə R A R I

Protokol № 9

İCTİMAİ SƏHİYYƏ FAKÜLTƏSİNİN ELMİ ŞURASI QƏRARA ALIR:

I. 1Ictimai səhiyyə fakültəsi üzrə Dövlət Attestasiya Komissiyasının hesabatı və gənc mütəxəssislərin hazırlanması işində fakültə kollektivinin vəzifələri barədə DAK-ın katibi İ.Mustafayevanın təqdim etdiyi məruzə qənaətbəxş hesab edilsin;

2. ATU-nun Bioloji kimya kafedrasının müdiri, prof. G.Əzizovanın kafedranın illik fəaliyyəti barədə hesabatı qənaətbəxş hesab edilsin.

II. Kafedra müdirlərinə tapşırılsın ki:

1. İmtahanların davam etdiyi müddətdə kafedralarda tələbələr üçün nəzərdə tutulmuş məsləhət saatlarının təşkilinə ciddi nəzarət edilsin;

2. Kafedraların illik hesabatlarının təqdimatında keyfiyyət göstəricilərinin ötən il ilə müqayisəli şəkildə verilməsi təmin edilsin;

3. Kafedralarda yerinə yetirilən elmi-tədqiqat işlərinin hesabatları FEŞ-na müzakirə üçün təqdim edilərkən kafedra iclasının çıxarışı ilə yanaşı həmin iclasın protokolunun da təqdim olunmasına nəzarət edilsin;

4. Fakültə Elmi Şurasına təqdim olunan dissertasiya işinin hesabatının müzakirəsində elmi rəhbərin də iştirakı təmin edilsin;

5. Fakültənin yaz imtahan sessiyasının və buraxılış imtahanlarının uğurla başa çatmasını təmin etmək üçün kollektivin səylərini səfərbər etsin.

III. Dekanlığa tapşırılsın ki, imtahanların gedişinə və nəzərdə tutulan işlərin yerinə yetirilməsinə nəzarəti gücləndirsin.